

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 46 (21.198)

6 mart 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun mətbuat konfransı olub.

Prezident İlham Əliyev və Baş nazir Boyko Borisov jurnalistlərin suallarını cavablandırdılar.

Sonra Bolqarıstanın Baş naziri Boyko Borisovun adından nahar verildi.

* * *

Martın 4-də Sofiyada Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına rəsmi səfəri martın 5-də başa çatıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfərə gedib.




## Ulu öndər Heydər Əliyev və Azərbaycan qadını



Naxçıvan Dövlət Universitetində Heydər Əliyev Universitetinin "Ulu öndər Heydər Əliyev və Azərbaycan qadını" mövzusunda növbəti məşğələsi keçirilib.

Məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ümummilli lider Heydər Əliyevin istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi dövründə Azərbaycan qadınlarının problemlərinin həllinə, onların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunun artırılması məsələlərinə böyük diqqət ayırdığını vurğulayıb.

"Dahi rəhbər Heydər Əliyev Azərbaycanda yüksək səviyyəli cəmiyyət qura bilən, onu beynəlxalq miqyasda təmsil etməyi bacaran, milli və ictimai mənafeyi öz şəxsi mənafeyindən üstün tutan qadınların idarəetmədə iştirakını daha da genişləndirib. Qadınlarımızsa onlara göstərilən etimadı doğruldaraq çalışdıqları sahələrdə nümunə göstərərək uğurlar qazanırlar", – deyən rektor fəaliyyət göstərdikləri bütün sahələrdə qadınlara fəxri adların verilməsini, milli-mədəni irsimizin təbliğini, bu əsaslar üzərində müasir mədəniyyətimizin inkişafına nail olunmasını görkəmli dövlət xadimi Heydər Əliyevin xalq qarşısındakı əvəzsiz xidmətlərindən biri olduğunu bildirib.

Məşğələdə "Ulu öndər Heydər Əliyev və Azərbaycan qadını" mövzusunda məruzə ilə çıxış edən Kitabxanaçılıq kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət İsmayılova qadınların dövlət qurumlarında və ümumiyyətlə, ictimai-siyasi həyatda təmsil olunmaq imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsinin ulu öndərin əsasını qoyduğu liberal gender siyasəti nəticəsində mümkün olduğunu nəzərə çatdırıb. Vurğulanıb ki, Türk dünyasının böyük oğlu Heydər Əliyevin həyata keçirdiyi gender siyasətinin əsas nəticələrindən biri də 1998-ci ildə Azərbaycanda keçirilmiş Qadınların I Qurultayı idi. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda demokratik cəmiyyətin, qadın hərəkatının əsasını qoydular. Məruzəçi qeyd edib ki, dahi şəxsiyyət Heydər Əliyevin imzaladığı fərman və sərəncamlarla, o cümlədən "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında", "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin gücləndirilməsi haqqında" və digər rəsmi sənədlərdə ölkəmizdə qadınların hüquqlarının müdafiəsi təmin olunub.

" Ulu öndərin siyasi kursu bu gün də uğurla davam və inkişaf etdirilir", – deyən Nəzakət İsmayılova məşğələ iştirakçılarının nəzərinə çatdırıb ki, ölkə Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun qəbulu qadınlarla bağlı məsələlərin hər zaman dövlət başçımızın diqqət mərkəzində olduğunun təzahürüdür.

**Mina QASIMOVA**

*Ölkə başçısı cənab İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən, hər il martın 5-i ölkəmizdə "Bədən Tərbiyəsi və İdman Günü" kimi qeyd olunur.*

## Naxçıvanda 5 mart – Bədən Tərbiyəsi və İdman Günü qeyd edilib



Martın 5-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində əlamətdar gün münasibətilə tədbir keçirilib.

Tədbirin aparıcıları qeyd ediblər ki, ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin bütün dövrlərində idmanın inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib. 1994-cü ildə ölkəmizdə Gənclər və İdman Nazirliyinin yaradılması ilə bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsinə başlanılıb. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər reallaşdırılıb. Ümummilli liderimizin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən yeni mərhələyə qədəm qoyub. 1997-ci il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra respublikada idman hərəkatının genişlənməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılıb, Azərbaycan beynəlxalq miqyasda idman ölkəsi kimi tanınıb.

Əlamətdar gün münasibətilə muxtar respublika idman ictimaiyyətini təbrik edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikamızda idmana və idmançılara göstərilən dövlət qayğısından, yeni olimpiya-idman komplekslərinin və digər idman obyektlərinin tikilməsinin bu sahənin hərtərəfli inkişafına təkan verməsindən, idmanın inkişafı sahəsində fəaliyyətin təşkilati-hüquqi əsaslarının yaradılmasından danışıb.Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarının təşkilatçısına çevrildiyini deyən nazir bildirib ki, 2015-ci ildə Birinci Avropa Olimpiya Oyunlarının ölkəmizdə keçirilməsinin qərara alınması da Azərbaycanın dünyadakı yüksək idman nüfuzundan xəbər verir.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasında da idmanın maddi-texniki bazası xeyli gücləndirilib. Muxtar respublikada bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması, idman infrastrukturunun yenidən qurulması, gənclərin idmana marağının artırılması diqqət mərkəzində saxlanılır. Yaradılan müasir idman infrastrukturu, öz növbəsində, Naxçıvanın müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi üçün də geniş imkanlar açıb.

Nazir deyib ki, muxtar respublikada idmanın kütləviliyinə nail olunması, xüsusilə uşaq və gənclərin idmana cəlbi istiqamətində ardıcıl işlər görülür. Bunun nəticəsidir ki, 2014-cü ildə muxtar respublikanın gənc idmançılarının ayrı-ayrı idman növləri üzrə respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib, idmançılarımız dünya çempionatlarında 2, Avropa çempionatında 3, beynəlxalq turnirlərdə 16, Azərbaycan birinciliklərində isə 56 medal qazanıblar. Bununla yanaşı, 2 naxçıvanlı idmançı ilk dəfə keçiriləcək "Bakı-2015" Avropa Oyunlarında iştirak etmək hüququ qazanıb.

Bildirilib ki, bu il fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilib, konkret tapşırıqlar verilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi aid orqanlar və muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları ilə birlikdə gənclərin idmana cəlbini diqqət mərkəzində saxlayacaq, istedadlı idmançılar nəslinin yetişdirilməsi üçün səy göstəriləcəkdir.

Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev, Güləş Federasiyasının sədr müavini Yaşar Səfərov çıxış edərək təmsil etdikləri federasiyaların fəaliyyəti və qazanılan uğurlar, qarşıda duran vəzifələr barədə danışıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə muxtar respublikada idmanın inkişafında səmərəli fəaliyyətlərinə görə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan idman ictimaiyyətinin nümayəndələrinə nişanlar təqdim edilib, 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə muxtar respublikada keçirilən yarışların qalibləri mükafatlandırılıb.

Sonra tədbirin bədii hissəsi olub.

**Səbuhi HÜSEYNOV**

## Xarici iqtisadi fəaliyyət iştirakçıları ilə növbəti görüş keçirilib

*Gömrük xidməti ilə biznes subyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində fəaliyyət göstərən məsləhət şurasının xarici iqtisadi fəaliyyət iştirakçıları ilə növbəti görüşü olub.*

Görüşdə manatın devalvasiyası ilə əlaqədar xarici ticarətin tənzimlənməsi üzrə müəyyənləşdirilmiş istiqamətlər diqqətə çatdırılıb, həmçinin xarici ticarət əməliyyatları zamanı aşkarlanan hüquqpozma faktları, o cümlədən gömrük auditində ortaya çıxan problemlər və onların aradan qaldırılması yolları müzakirə olunub.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov manatın devalvasiyasının yerli istehsalçılara və istehlakçılara təsirini azaltmaq məqsədilə təsirli tədbirlərin həyata keçirildiyini deyib. Gömrük orqanlarının daxili bazarda idxal mallarının, xüsusən qida və kənd təsərrüfatı məhsullarının, dərman preparatlarının, xaricdən gətirilən xammal hesabına hasil olunan yerli istehsal məhsullarının bazar qiymətinin süni şəkildə artırılmasına qarşı olduğunu deyən komitə sədri bu məqsədlə xarici iqtisadi fəaliyyət iştirakçıları ilə səylərin birləşdirilməsinin önəmini vurğulayıb.

Tədbirdə çıxış edən komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli manatın devalvasiyası ilə əlaqədar xarici ticarətin tənzimlənməsi istiqamətlərini biznes subyektlərinin diqqətinə çatdırıb. Vurğulanıb ki, gömrük orqanları daxili bazarı xarici təsirlərdən qorumaqla yanaşı, süni qiymət dəyişmələrini də daim nəzarətdə saxlayır. Manatın devalvasiyasının daxili bazarda ciddi qiymət qalxmaları ilə nəticələnməməsi üçün gömrük orqanları tərəfindən tənzimləyici tədbirlərin davam etdiriləcəyini qeyd edən sədr müavini bu istiqamətdə görülən işlərin yerli istehsalçıların və istehlakçıların maraqlarına xidmət etdiyini önə çəkib.

Qeyd olunub ki, gömrük orqanları bazarda baş verən qiymət dəyişmələrinin təhlilini, buna yol açan səbəblərin idxalatçılarla müzakirəsini, belə halların qarşısının alınması üçün maarifləndirmə işinin aparılmasını və aidiyyəti dövlət orqanları ilə birgə reydlərin təşkilini bundan sonra da davam etdirəcəkdir.

Komitənin Hüquqpozmalara qarşı mübarizə şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Əli Əliyev xarici ticarət əməliyyatları zamanı aşkarlanan hüquqpozma faktlarını görüş iştirakçılarının diqqətinə çatdırıb.

Komitənin Audit şöbəsinin rəisi, gömrük xidməti polkovniki Tofiq Hüseynov gömrük auditi zamanı aşkarlanan nöqsanlar və onların aradan qaldırılması yollarından danışıb.

Sonra xarici iqtisadi fəaliyyətlə məşğul olan sahibkarlıq subyektlərinin iştirakı ilə diskussiya olub.

Tədbirə yekun vuran komitə sədri bir daha vurğulayıb ki, manatın devalvasiya prosesində bütün biznes subyektləri süni qiymət qalxmalarından çəkinməli, istehlakçıların mənafeyi əsas tutulmalıdır. Qeyd olunub ki, gömrük orqanları xarici ticarətin tənzimlənməsi ilə yerli istehsalın stimullaşdırılması, daxili bazarda qiymət dəyişmələrinin tənzimlənməsi və istehlakçıların hüquqlarının qorunması sahəsində fəaliyyətini bundan sonra da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsi diqqət mərkəzindədir

*Muxtar respublikada yeni iş yerlərinin açılması, əmək bazarının müasir səviyyədə qurulması və əmək potensialından səmərəli istifadə edilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu sahədə qarşıya qoyulan vəzifələrin icrasını diqqətdə saxlayır.*

2015-ci ilin fevral ayında işaxtaranların məşğulluğunun təmin olunması və peşə hazırlığı, işçilərin əmək hüquqlarının qorunması, sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası istiqamətində işlər davam etdirilmişdir. Ötən ay həyata keçirilən aktiv məşğulluq tədbirləri nəticəsində 200 işaxtaran vətəndaş məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 4 şəxs kvota yerlərinə göndərilmiş, 10 nəfər isə müvafiq peşə kurslarına cəlb edilmişdir. Qeyd olunan dövrdə müvafiq kateqoriyadan olan şəxslərə, habelə aztəminatlı ailələrə 1 milyon 222 min 241 manat dəyərində sosial müavinət və ünvanlı dövlət sosial yardımı ödənilmişdir.

Əmək bazarının tələbləri nəzərə alınaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan “qadın bərbəri”, “qaz təsərrüfatının istismarı və təmiri üzrə nəzarətçi-çilingər” peşələrini, ümumilikdə, 37 nəfər bitirmişdir. Hazırda “xalçaçı”, “elektrik montyoru”, sağlamlıq imkanları məhdud şəxslərdən ibarət “kompüter istifadəçisi” peşələri üzrə kurslar davam etdirilir.

Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı 50 obyektdə nəzarət aparılmış, 36 halda yeni əmək müqaviləsinin bağlanmasına, 42 halda isə əməkhaqqının real göstərilməsinə nail olunmuşdur. İşəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsinə nəzarət məqsədilə 11 müəssisə və tikinti sahəsində müşahidələr həyata keçirilmişdir. Yoxlamalar zamanı fərdi mühafizə vasitələrindən istifadə etməyən 11 işçi aşkarlanmış, onlardan 8-i həmin vasitələrlə yerində təmin olunmuş, 3-ü isə tikinti sahəsindən uzaqlaşdırılmışdır. Həmçinin 11 müəssisədə işçilərlə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanması təmin edilmişdir.

Əmək bazarının tələbləri əsasında işçilərin peşə qabiliyyətinin artırılması, ixtisası üzrə dərin biliklərə yiyələnməsi məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində müvafiq kurslar keçirilir. Fevral ayında mərkəzdə “Əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl olunması” mövzusunda növbəti ixtisasartırma kursu təşkil olunmuş, “Cahan Qida Market“, “Cahan Qənd“, “Cahan Tobacco“, “Bərəkət Qida Məhsulları“, “Hilal“ Ət və Ət Məhsulları, “Ləzzət Qida Sənaye“, “Prestij Naxçıvan Pivəsi“, “Naxçıvan Duz İstehsalı“ Məhdud Məsuliyyətli cəmiyyətləri, “Sirab“ Açıq Səhmdar Cəmiyyəti və “Fərda“ şirniyyat müəssisəsindən 10 mütəxəssis kursa cəlb edilmişdir.

Naxçıvan Muxtar Respublikasında insan amilinə qayğı bütün istiqamətlər üzrə həyata keçirilən dövlət siyasətinin əsasını təşkil edir. Buna görə də tənha yaşayan və köməyə ehtiyacı olan şəxslərə xüsusi qulluq göstərilməsi bu gün sosial təminat sektorunda çalışan işçilərin əsas vəzifələrindəndir. Ötən ay ərzində bu istiqamətdə tədbirlər davam etdirilmiş, 500 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində sosial-məişət xidməti göstərilmişdir. Həmçinin Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 18 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 31 uşağın müalicəsi təşkil edilmiş, 15 vətəndaş texniki reabilitasiya vasitəsilə təmin olunmuş, 8 şəxsin sosial məişət şəraitinin yaxşılaşması, 3 şəxsin isə respublika daxilində müalicəsinə köməklik göstərilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə işlər də uğurla davam etdirilir. Xüsusi tədris proqramına uyğun olaraq, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində distant tədrisin imkanlarından istifadə olunmaqla dərslər təşkil edilmişdir. Ötən ay görmə qabiliyyəti məhdud şəxslər üçün nəşr olunan “Könül işığı” adlı brayl jurnalının növbəti nömrəsi mərkəzin audiostudiyasında səsləndirilmiş və kitabxananın fonduna daxil edilmişdir.

Fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məhdud fiziki imkanlı gənclərin muxtar respublikanın idman həyatına inteqrasiyası üçün fəaliyyətin gücləndirilməsi ilə bağlı konkret tapşırıqlar verilmişdir. Fevral ayından etibarən tapşırıqların icrasına başlanılmış, sağlamlıq imkanları məhdud qızlardan ibarət 12 nəfərlik bədii gimnastika üzrə idman qrupu yaradılmışdır.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, məşğulluq səviyyəsinin artırılması, sağlamlıq imkanları məhdud uşaqların təhsilə və cəmiyyətə inteqrasiyası istiqamətində işlər növbəti aylarda da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Hava nəqliyyatı muxtar respublikanın sosial-iqtisadi həyatında mühüm rola malikdir. Xüsusilə Naxçıvanın ölkəmizin digər hissəsindən təcrid olunması nəqliyyatın bu növünə olan tələbatı daha da artırmışdır. Buna görə də Naxçıvan Beynəlxalq Hava Limanının fasiləsiz fəaliyyəti və nümunəvi xidmətin təşkili istiqamətində işlər fevral ayında da davam etdirilmişdir.*

# Naxçıvan Beynəlxalq Hava Limanı sərnişinlərə nümunəvi xidmət göstərir



Ötən dövrdə hərəkətin təhlükəsizliyinin təmin olunması məqsədilə Beynəlxalq Hava Limanında bütün zəruri tədbirlər yerinə yetirilmiş, hava gəmilərinin və texniki avadanlıqların sazlığı müntəzəm olaraq diqqət mərkəzində saxlanılmış, aerodromda cari təmir işləri aparılmışdır. Fevral ayının 21-də THY-328 saylı reys buzlaşmaya qarşı emal olunmuş, hava gəmilərinə xidmət edən xüsusi maşın və texnikalara, yanğınsöndürən avtomobillərə texniki xidmət göstərilmiş, xidməti ərazilərdə profilaktik yoxlamalar aparılmış, yararsız yanğınsöndürmə balonları yeniləri ilə əvəz olunmuşdur. Ötən ay uçuşların elektrik-işıq texnikası təminatı, istilik və sanitariya texnikası ilə təchizat xidmətləri də işini tələb olunan səviyyədə qurmuşdur. Belə ki, bütün növ dizel generatorları texniki nəzarətdən keçirilmiş, yanğın nasos stansiyasındakı elektrik mühərriklərinin avtomatik rejimdə işləməsi, təzyiq və qoruyucu relelərin sazlığı diqqətdə saxlanılmışdır. Transformatorlara və elektrik şitlərinin mühafizə avadanlıqlarına texniki xidmət göstərilmiş, texniki təhlükəsizlik tədbirlərinə ciddi əməl olunmuşdur. Texnoloji avadanlıqların istismarı və təmiri sahəsi üzrə işlər qrafikə uyğun davam etmiş, cihazların davamlı və normal işinin təşkili üçün qabaqlayıcı tədbirlər görülmüşdür. Xidmətin günün tələblərinə uyğun təşkili məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində aerovağzal binasının yenidən qurulması və Şərur rayonunda aviakassa binasının inşası davam etdirilmiş, Ordubad şəhərindəki aviakassada monitorlar və müşahidə kamera sistemi quraşdırılmışdır.

İşçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə də mütəmadi tədbirlər görülür. Ötən ay Aviasiya təhlükəsizlik xidmətinin agent və mütəxəssisləri Milli Aviasiya Akademiyasında təşkil olunan ilkin monitor və monitor ixtisasartırma kursunda iştirak etmiş, yanğın təhlükəsizliyi və qəza-xilasetmə komandası, eləcə də texniki heyətlə müntəzəm olaraq nəzəri və praktik məşğələlər keçirilmişdir. Hava gəmilərinin buzlaşmaya qarşı emalı üçün kurs təşkil edilmiş, işçilərə kitab və təlimatlar toplusu paylanılmış, 11 əməkdaşa sertifikat verilmişdir.

Bütün bunların nəticəsidir ki, 2015-ci ilin fevral ayı ərzində də hava limanında əhaliyə keyfiyyətli xidmət təşkil olunmuşdur. Ötən ay ərzində yerli hava xətti ilə 11 min 492 sərnişin, 142 min 9 kiloqram baqaj, 61 min 147 kiloqram yük və 2 min 337 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətti üzrə isə Naxçıvan-Moskva reysi ilə 149 sərnişin, 2 min 239 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 380 sərnişin və 3 min 443 kiloqram baqaj daşınmışdır.

*Naxçıvan Beynəlxalq Hava Limanının kollektivi əhaliyə nümunəvi xidmət göstərmək üçün daha səylə çalışacaqdır.*

**Naxçıvan Beynəlxalq Hava Limanı**

# Əhaliyə göstərilən səyyar xidmət davam etdirilir



*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən daşınmaz əmlaka mülkiyyət hüquqlarının dövlət qeydiyyatı və digər xidmətlərin yerində göstərilməsi üçün səyyar xidmətin tətbiq edilməsi davam etdirilir.*

Xidmətin İnformasiya texnologiyaları və məlumat bazası sektorunun aparıcı məsləhətçisi Ruslan Rüstəmovun bildirdiyinə görə, mart ayının 3-də xidmət əməkdaşları Babək rayonunun Aşağı Buzqov kəndində olublar. Burada əməkdaşlar əhalidən mülkiyyət hüquqlarının Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyata alınması sahəsində 24 müraciət qəbul ediblər. Dünən isə Sədərək rayonunun Qaraağac kəndində sakinlər səyyar xidmətin onlar üçün yaratdığı imkanlardan yararlana biliblər. Bundan başqa, səyyar xidmət martın 10-da Culfa rayonunun Ərəzin, 12-də Şərur rayonunun İbadulla, 17-də Ordubad rayonunun Aşağı Əndəmic, 19-da Kəngərli rayonunun Qarabağlar, 29-da Şahbuz rayonunun Kolanı kəndlərində olacaq. Martın 30-u isə səyyar xidmətin növbəti dayanacağı Şərur rayonunun Çəmənli kəndi olacaq.

Əhaliyə səyyar xidmətin göstərilməsinə bu il yanvar ayının 15-dən başlanılıb. Yanvar ayı ərzində Culfa rayonunun Yaycı, Şərur rayonunun Dizə, Oğlanqala, Ordubad rayonunun Vənənd, Kəngərli rayonunun Çalxanqala, Şahbuz rayonunun Ağbulaq kəndlərində əhaliyə səyyar xidmət göstərilib, ümumilikdə, 141 müraciətə baxılıb. Fevral ayında isə xidmətin əməkdaşları Babək rayonunun Didivar, Sədərək rayonunun Sədərək, Culfa rayonunun Bənəniyar, Şərur rayonunun Aşağı Aralıq, Ordubad rayonunun Nüsnüs, Kəngərli rayonunun Xok, Şahbuz rayonunun Kükü kəndlərində və Şərur rayonunun Mahmudkənd yaşayış məntəqəsində olublar. Səyyar xidmət zamanı adıçəkilən kəndlərin sakinlərindən 230 müraciət qəbul edilib.

Xüsusi imtiyazlı təbəqədən olan insanlara (əlil, ahıl, sağlamlıq imkanları məhdud insanlar, o cümlədən yaşayış yeri uzaqda yerləşən, müxtəlif səbəblərdən hərəkət etmək çətinliyi olan vətəndaşlar) daşınmaz əmlaka mülkiyyət hüquqlarının Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyatı və digər xidmətlərin yerində göstərilməsi məqsədilə “NAZ-Lifan-6401” markalı minik-yaşayış avtomobili mobil ofis səviyyəsində dizayn edilib, qeydiyyat işlərinin aparılması üçün lazımi avadanlıqlarla təchiz olunub. Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən səyyar xidmətlərin göstərilməsi üçün tətbiq edilən bu yenilik qeydiyyat xidmətlərinin vətəndaşlar üçün əlçatanlığını təmin etməklə yanaşı, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı sahəsində səmərəliliyin artırılmasına xidmət edir. Bundan başqa, elektron xidmətlər sahəsində daha bir yeniliyə imza atılıb, muxtar respublika Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində daşınmaz əmlakın məlumat bazası yaradılaraq milli qeydiyyat sistemi proqramı vasitəsilə avtomatlaşdırılmış şəkildə lokal idarəetmə sistemi təşkil olunub və bu sistem inkişaf etdirilməkdədir. Müvafiq portalın istifadəyə verilməsi sayəsində bu gün vətəndaşlar əlavə vaxt sərf etmədən, birbaşa olduqları yerdən daşınmaz əmlaklarını qeydiyyatdan keçirmək üçün internet vasitəsilə onlayn müraciət etməklə yanaşı, plastik kartlarla ödəniş edə bilirlər. Hazırda 21 elektron xidmət vətəndaşların və hüquqi şəxslərin istifadəsindədir və təqdim edilən xidmətlərin sayının artırılması istiqamətində işlər davam etdirilir. Bu tədbirlər “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifə və tapşırıqların icrası istiqamətində həyata keçirilib. Yeni xidmətin yaradılması fəaliyyətdə səmərəliliyin artırılması, ehtimal olunan bürokratik əngəllərin aradan qaldırılması, əhalinin rahatlığının təmin edilməsi baxımından əhəmiyyətlidir.

**S.HÜSEYNOV**

# Naxçıvanda istehsal edilən avtomobillər Belarus Respublikasına ixrac olunacaq

*Avtomobil istehsalı iqtisadiyyatın ən mühüm göstəricilərindən biridir. Ölkəmizdə sosial-iqtisadi sahənin yüksələn xətt üzrə inkişafı əhalinin yeni avtomobillərə olan tələbatını da artırır. Muxtar respublikada 2010-cu ildən fəaliyyət göstərən Naxçıvan Avtomobil Zavodu da istehsal imkanlarını artırmaqla bu tələbatı ödəməyə çalışır.*



İllik istehsal gücü 5 min ədəd avtomobil olan zavodda hazırda 9 modeldə avtomobil (xetçbek-tipli “NAZ-Lifan-320” və “NAZ-Lifan-330”, sedantipli “NAZ-Lifan-620”, “NAZ-Lifan-630” və “NAZ-Lifan-720”, krossovertipli “NAZ-Lifan X-60”, yük-bortlu “NAZ-Lifan LF-1022”, yük-furqonlu “NAZ-Lifan LF-5028” və mikroavtobus (1+6 nəfər) “NAZ-Lifan LF-6401”) istehsal olunur. Yaxın zamanlarda isə sedantipli “NAZ-Lifan-820” və krossovertipli “NAZ-Lifan X-50” modellərinin istehsalına başlanacaq.

“NAZ-Lifan-820” modeli əvvəlki sinfindən fərqli olaraq, arxa hissə ilə bərabər, həm də ön park-radar sistemi, mühərriki işə salmaq üçün start-stop düyməsi, ön oturacaqların qızdırılması və təhlükəsizlik yastıqlarının sayının çox olması ilə (4 ədəd) seçilir. Krossovertipli “NAZ-Lifan X-50” modeli isə “NAZ-Lifan X-60” modelindən fərqli olaraq daha az yanacaq sərfinə və elektronik sükan idarəetməsinə malikdir. Avtomobillərin qiymətləri modeldən və komplektasiyadan asılı olaraq, 7500 manatdan 15900 manatadək dəyişir. Alıcılara nağd pulla və köçürmə yolu ilə təklif edilən bu avtomobilləri Naxçıvan Muxtar Respublikasının sakinləri qiymətinə əlavə faiz hesablanmadan dəyəri hissə-hissə ödənilməklə də əldə edə bilərlər.

Qeyd edək ki, avtomobillər əldə olunmuş razılığa əsasən, cari ildən Belarus Respublikasına ixrac olunacaq.

**Xəbərlər şöbəsi**

*Onu Ordubadda hamı yaxşı tanıyır: kimisi bu qədim şəhərin tarixinin yaxından bilicisi, kimisi şərqşünas, kimisi də öz yurdunun gözəlliklərinə bağlı insan kimi. Həlim Ordubad ləhcəsindəki danışığı isə söhbətə ayrı bir şirinlik qatır. Əsasən, tarixi mövzularla maraqlanan həmsöhbətimiz mətbuata da yaxın insandır. Tez-tez rayon qəzetində maraqlı araşdırma xarakterli yazılarla çıxış edir. Müsahibimlə ilk tanışlığımız 6-7 il bundan əvvələ gedib çıxır. Onda da Ordubadın sirli tarixindən, görkəmli şəxsiyyətlərindən, bu torpağın minillik mədəniyyətindən söhbət açmışdı bizə. Bu dəfə də söhbətimiz maraqlı alındı. Nələrdən danışmadıq ki Cabir Cabbarovla... Bol meyvəli yurdun üzügülər, xeyirxah insanlarından tutmuş şəhərin beş sirrinədək, "qətlə"li tikililərin inşasından tutmuş minarəsiz məscidlərədək. Ancaq bu söhbətimizə bir azdan qayıdacağıq...*



# Ordubad: əsrarəngiz Şərq şəhəri





Ordubad tarixən maraqlı yurd yeri olub. Tarixi çox qədimlərə gedib çıxır. Dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən bu şəhərin bol sulu çeşmələri, barlı-bərəkətli meyvə bağları, mehriban insanları həmişə bura gələn səyyahlar üçün əməllibaşlı mövzu olub. Ötən əsrin məşhur səyyahı Hacı Zeynalabdin Şirvani "Bustanüs-səyahə" kitabında yazır: "Ordubad ürəkaçan gözəl bir şəhərdir. Ora adama fərəh verən yerdir. Onun möhkəm qalası, bol suyu və çoxlu bağları vardır. Meyvəsi bol və dadlıdır. Havası insana sağlıq verir. Adamları surətcə gözəldir".

Başı göylərə çatan çinarlar bu qədim şəhərin tarixinə əsrlərdir, şahidlik edir. XX əsrin əvvəllərində buranı ziyarət etmiş Nefodov adlı səyyah yazıb: "Ordubad öz daşqaşı ilə parıldayan qənirsiz gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir". XIX əsrdə polyak tədqiqatçısı A.Petzold, fransız yazıçısı A.Düma və başqaları öz yazılarında bu gözəlliyi vəsf edib, Ordubad çinarlarının möhtəşəm vüqarına heyran qaldıqlarını bildiriblər. Arxeoloji qazıntılar zamanı əldə olunmuş abidələr Ordubadın tarixinin 7 min il əvvələ söykəndiyini göstərir. Müxtəlif dövrlərdə burada aparılmış tədqiqatlar şəhərin zəngin mədəniyyətə malik olduğundan xəbər verir. Bu yurd yeri məşhur ipəyinə və burada yetişdirilən meyvələrinə görə də tanınıb. Belə ki, Ordubad ipəyi hələ XVI əsrin ikinci yarısından etibarən avropalıların məişətində əvəzedilməz parça kimi tanınıb. 1875-ci ildə şəhərdə buxar mühərriki ilə işləyən ipəksarıma fabriki olub. 1886-cı ildə ipək istehsal edən 4 iri ipəksarıma müəssisəsi fəaliyyət göstərib. Ordubad şəhəri XIX əsrin ikinci yarısı, 1920-ci illərin əvvəllərində Rusiya bazarlarını da yüksəkkeyfiyyətli xam ipək, ipək parça, habelə quru meyvə ilə təchiz edən mühüm mərkəzlərdən olub. Avropatipli baramaaçan fabriklərin tikilməsinə burada 1870-ci ildə başlanılıb. Nəhayət, 1928-1929-cu illərdə 12 kiçik ipək fabriki birləşdirilərək Ordubad İpək Kombinatı yaradılıb. Əsrlər boyu Ordubad ipəyi gözəlliyi və keyfiyyəti ilə ad qazanaraq beynəlxalq festivallarda mükafatlara layiq görülüb.

### *Çeşmələri bol Ordubad...*

Qoca Şərqin ənənəvi şəhərlərindən fərqli olaraq, Ordubad həm də şəhər infrastrukturu baxımından cəlbedicidir. Aydın məsələdir ki, su olmayan yerdə həyat da olmaz. Ancaq su olan yerdə həyatın daha gözəl olmasını bu şəhərin sakinləri hələ qədimdən anlayıblar. Ordubad şəhər ziyalılarından olan Firdovsi Mehdiyev tarixçilərə istinad edərək bildirir ki, qədimlərdə Ordubad şəhərində yüzdən çox çeşmə olub. Elə təkcə XVII əsrdə yaşamış tarixçi Məhəmməd Müfid Mustafa Ordubad şəhərində 70-dən çox çeşmənin olduğunu bildirir. Bu kəhrizlərin inşası zamanı mühəndislik prinsiplərinə düzgün əməl olunub. Kəhrizlərin həm qidalanma zonalarında, həm də sudan istifadə yerlərində yüksək sanitariya mədəniyyəti normalarına riayət edilib. Kəhriz quyuları elə etibarlı yerlərdə mühafizə olunub ki, oraya heç bir yerüstü lil və ya çöküntülər daxil ola bilmir. Kəhrizlərin yer səthindən 3-10 metr dərinlikdə yerləşdirilməsi, şəhərdə kanalizasiya qurğularının mövcudluğu, hamamlar burada qədim şəhər mədəniyyətini təsdiq edən faktlardır. Son dövrlərdə onlarla belə kəhriz yenidən bərpa olunaraq əhalinin istifadəsinə verilib. Firdovsi müəllimin dediyinə görə, keçmişdə yeraltı suların çəkilişi zamanı, əsasən, saxsı borulardan istifadə olunub ki, bu da suyun həm ekoloji baxımdan təmizliyinin saxlanılmasına, həm də sərin olmasına imkan verib. Eyni zamanda hər kəhrizin suyu əhalinin təsərrüfat sayına görə bölünüb. Beləliklə, saxsı borular şəhərin alt hissəsində labirint kimi dolanaraq əhalinin suya olan tələbatını ödəyib.

### *Minarəsiz məscidləri, "qətlə"li tikililəri olan və beş sirri özündə saxlayan qədim şəhər*

Ordubad sirli bir aləmdir. Bu aləmdə tarix də var, mədəniyyət də, milli köklərə bağlı özünəməxsusluq da. Şəhərdə keçmişin xatirələrini özündə yaşadan "Cümə" məscidi, "Qeysəriyyə" adlı tarixi abidə, Buzxana binası, XVIII-XIX əsrlərə aid məscidlər var. Şəhərin mərkəzində yerləşən "Cümə" məscidi qədim memarlıq abidəsi kimi indi də bura gələnləri heyrətə salır. Onun 1275-ci ildə tikildiyi qeyd olunub. Lakin 1903-cü ildə məscid təmir edilərkən tapılmış bir kərpicin üzərində "III tarixi-hicri Ər-Rəşid" sözləri onun yaşını 500 il də artırır. Məscidin giriş qapısına vurulmuş lövhədə 1607-ci ildə Şah Abbasın verdiyi xüsusi fərmanın mətni yazılıb: "Ordubadlılar əməksevər, qoçaq və işgüzar adamlardır. Nəsiri Tusinin yüksək nəslinin burada davamı üçün adıçəkilən qəsəbənin əhalisi bütün vergilərdən azad edilir".

Yeri gəlmişkən, "Cümə" məscidinin qarşısındakı qəbirlərdən biri Tusinin nəvələrindən olan Mirzə Ünayət Nəsiri Tusinin qızı Şərəf xanımın qəbridir. XVI-XVII əsrlərə aid ikimərtəbəli mədrəsə binası orta əsrlərdə dinin, elmin inkişafında mühüm rol oynayıb. Cabir müəllim deyir ki, bu mədrəsədə vaxtilə təkcə dini deyil, dünyəvi elmlər də tədris olunub. Nadir şahın dövründə mədrəsədə zamanın tələbinə uyğun olaraq memarlar, hərbçi mütəxəssislər yetişdirilib. Hətta bu hərbçi mütəxəssislərdən bir çoxu sonralar Nadir şahın qoşununda xidmətə cəlb edilərək şahın 1739-cu ildə Hindistana yürüşündə də iştirak ediblər.

...Cabir müəllimlə şəhərin küçələrini gəzirik. Şəhər, əsasən, 5 böyük məhəllədən ibarətdir. Bu məhəllələr "Ambaras", "Gürdətal", "Üçtürləngə", "Mingis" ("Minkəs") və "Sərşəhər" ("Şəşəri") adlanır. Bundan başqa, həmin məhəllələrə nisbətən kiçik məhəllələr də var ki, bu məhəllələrə "Bəylər", "Qoşqar", "Qaraçanaq", "Dilbər", "Əngəş", "Əsgərxan", "Varsan", "Körpübaşı", "Düz", "Musa təngi" və sairi misal göstərmək olar. Bu əsas məhəllələrin hər birinin öz böyük məscidi var ki, bu məscidlərin də ümumi sayı beşdir. Sonralar məhəllədaxili kiçik məscidlər də tikilib. Ancaq məscidlərin heç birinin minarəsi yoxdur. Minarəni məscidin damında yerləşən səki əvəz edir. Oraya isə kiçik pilləkənlərlə qalxmaq mümkündür. O ki qaldı məscidlərdə minarələrin olmamasına, bunun da səbəbi ondan ibarətdir ki, Ordubad şəhərinin yerləşdiyi coğrafi ərazi düzənlik deyil. Şəhər yuxarıdan aşağıya doğru maili şəkildə yerləşib. Bu isə səsin yuxarıdan aşağıya doğru maneəsiz yayılmasına imkan verir. Buna görə də Ordubaddakı məscidlərdə minarələrin tikilməsinə ehtiyac olmayıb. Qeyd etmək lazımdır ki, ənənəvi olaraq, hər məscidin qarşısında çeşmə və çinar ağaclarının olmasına da xüsusi diqqət yetirilib. Şəhərin əsas böyük meydanında (həm keçmişdə, həm də indi şəhər əhlinin ən çox toplaşdığı meydanda) yaşı yüzillərə dayanan 5 böyük çinar ağacının olması da təsadüfi deyil. Eyni zamanda nəzərə alaq ki, şəhərin planında da beş istiqamət nəzərə çarpır. Belə ki, şimalda Yuxarı Əylis kəndinə, şimal-şərqdə Gənzə kəndinə (Gənzə çayından keçməklə), şərqdə qədim qəbiristanlığa, cənubda Təbriz şəhərinə, cənub-qərbdə Naxçıvan şəhərinə uzanan istiqamətlər aydın seçilir. Beləliklə, beş əsas böyük məhəllə, beş böyük məscid, əsas meydandakı beş uca çinar və beş istiqamət bu şəhərin hansı sirrindən xəbər verir? Cabir müəllim deyir ki, tarixən Ordubadda İslam dininin və mədəniyyətinin inkişafına böyük diqqət yetirilib. İslamın təbliğində və inkişafında əsas rol oynamış Məhəmməd Peyğəmbər və dörd xəlifənin timsalında bu rəmzi say şəhərin infrastrukturunda əks etdirilib...



Şəhərin küçələrində diqqətimi cəlb edən məqamlardan biri də keçmişdə tikilmiş yaşayış evlərinin divarında hörgü zamanı ağac dirəklərindən (dördkünc formada) istifadə olunması idi. Həmsöhbətimiz bildirir ki, evin və ya hər hansı bir tikilinin hörgüsü zamanı istifadə olunmuş bu ağacın adına "qətlə" deyirlər. Sərt qələmə ağacından olan bu qətlələr evin həm eninə, həm də uzununa olan divarlarında istifadə olunub. Belə ki, yerdən, təxminən, bir metr hündürlükdə, daha sonra isə iki metr və ya daha çox hündürlüklərdə qətlələr divar boyu uzadılmış şəkildə qoyulub. Ordubad şəhəri aktiv seysmik zonada yerləşdiyinə görə buradakı evlərin zəlzələyə qarşı davamlılığı qətlələrlə təmin olunub ki, bu da güclü titrəyişlər zamanı tikilinin ağırlığını sabit şəkildə saxlamağa öz mühəndislik töhfəsini verib.

Qədim Ordubad maraqlı, eyni zamanda sirli aurası ilə bu gün də bura yolu düşən hər kəsi heyrətləndirir. Şəhər o qədər ecazkardır ki, hər dəfə burada olanda yeni bir aləmlə qarşılaşırsan. Elə buna görə də Ordubad 1977-ci ildə qoruq şəhər elan olunub. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev buranı "Azərbaycanın incisi" adlandırıb. Son 20 ildə isə bu qədim şəhər yenidən qurulub. Onlarla inzibati və yaşayış binaları, yollar, təhsil, səhiyyə, mədəniyyət obyektləri müasir görkəm alıb.

*Qədimlik və müasirliyin simasını bizə eyni güzgüdə göstərməyi bacaran Ordubad təkcə muxtar respublikanın və ya ölkəmizin deyil, ümumilikdə, qədim Şərqin əsrarəngiz şəhərlərindən biridir. Bütün bu parametrlərinə görə Ordubad yaxın gələcəkdə milli və beynəlxalq festivalların, tarixi və mədəni simpoziumların keçiriləcəyi məkan kimi tanışlıq turizminin əsas mərkəzlərindən birinə çevrilməsinə daha çox iddialı görünür...*

**Səbuhi HƏSƏNOV**

## Elmi ictimaiyyət AMEA Rəyasət Heyətinin iclasını videobağlantı vasitəsilə izləyib

***Martın 4-də Bakı şəhərində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin 2014-cü ilin nəticələri və qarşıda duran vəzifələrlə bağlı iclası keçirilib.***



AMEA-nın Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşları Naxçıvan Dövlət Universitetində videobağlantı vasitəsilə iclasın gedişini izləyiblər.

İclası giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə ötən ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı çıxış etdikdən sonra sözü AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə verib.

İsmayıl Hacıyev bildirib ki, hesabat ilində bölmədə Azərbaycan Respublikası Prezidentinin 19 fərman və sərəncamı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 qərar və sərəncamı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və Nazirlər Kabinetinin 11 adda fərman və sərəncamları icra edilib. Ötən il AMEA-nın Naxçıvan Bölməsi Rəyasət Heyətinin 15 iclası keçirilib.

AMEA Naxçıvan Bölməsinin 2014-cü ildəki elmi və elmi-təşkilati fəaliyyəti barədə danışan akademik qeyd etdi ki, AMEA Rəyasət Heyəti tərəfindən 2014-cü il üçün təsdiq edilmiş plana uyğun olaraq, ötən il 6 elmi istiqamətdə 6 problemi əhatə edən 7 mövzuya daxil olan 32 elmi-tədqiqat işinin 92 mərhələdə yerinə yetirilməsi nəzərdə tutulmuşdu. Planda nəzərdə tutulan 9 mərhələ qismən yerinə yetirilib, 83 mərhələdə tədqiqatların icrası tamamlanıb və 10 mühüm elmi nəticə əldə edilib. Tədqiqatlar 21 şöbə və 8 laboratoriyada 2 akademik, 6 müxbir üzv, 4 elmlər doktoru, 47 fəlsəfə doktoru, 8 doktorant, 2 dissertant, 14 elmi işçi olmaqla, 83 elmi və köməkçi heyət tərəfindən yerinə yetirilib.

Ötən il Naxçıvan Muxtar Respublikasındakı ali təhsil ocaqlarında aparılan elmi-tədqiqat işləri barədə də məlumat verən İsmayıl Hacıyev nəzərə çatdırıb ki, 2014-cü ildə Naxçıvan Dövlət Universitetində elmi istiqamətlər üzrə 35 kafedrada və Regionun inkişafı problemləri elmi-tədqiqat laboratoriyasında 22 problem üzrə 262 əməkdaş 257 mövzuda elmi-tədqiqat aparıb. Hesabat ilində Naxçıvan Müəllimlər İnstitutunda 3 elmi-metodik istiqamət üzrə elmi-tədqiqat işləri yerinə yetirilib. Bütün istiqamətlər, problemlər və mövzular AMEA Elmi İnnovasiyalar Mərkəzində və Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda qeydiyyata alınıb.

İclasda AMEA-nın fəaliyyətinə dair məsələlər geniş müzakirə olunub, qarşıda duran vəzifələrdən danışılıb.

**Rauf ƏLİYEV**

## "Naxçıvan" Universiteti əməkdaşlarının ABŞ-da Naxçıvan haqqında elmi məqaləsi dərc olunub

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və humanitar inkişaf sahələrində əldə olunmuş nailiyyətlər dünyanın hər yerində maraq doğurmaqdadır. Bu həftə "Naxçıvan" Universitetinin əməkdaşları Zülfüqar Zülfüqarovun və iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarovun ABŞ-ın nüfuzlu SAPUB elmi nəşriyyatında çap olunan rüblük "Amerika Turizm Menecmenti" jurnalında dərc edilmiş "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında sosial turizmin resursları, planlaşdırılması və inkişafı" adlı elmi məqaləsi də bu baxımdan maraqla qarşılanmışdır. Elmi məqalədə Naxçıvan Muxtar Respublikasında sosial turizm istiqamətində görülmüş işlər təhlil olunmuş, Duzdağ Fizioterapiya Mərkəzində sosial cəhətdən həssas əhali qruplarının pulsuz müalicəsinin təşkilinin əhəmiyyəti göstərilmişdir. Elmi məqalədə Duzdağ Fizioterapiya Mərkəzində Azərbaycan vətəndaşları ilə yanaşı, gürcüstanlı aztəminatlı ailələrdən olan uşaqların da pulsuz müalicəsinin təşkili müasir dünyada sosial turizmin inkişafına xidmət edən elmi tələblər və mövcud sosial imperativlər baxımından tutarlı fakt olduğu sübut olunmuşdur. Məqalədə turizmin idarə edilməsi baxımından dərin humanitar motivlərlə zəngin olan belə addımların təkcə ölkədaxili turizm çərçivəsində deyil, eyni zamanda beynəlxalq turizm səviyyəsində də mümkün ola biləcəyi qənaətinə gəlinmiş, bu sahədə Naxçıvan Muxtar Respublikasında qazanılmış müsbət təcrübədən əldə olunmuş elmi nəticələr və gələcək perspektivlər təhlil edilmişdir.

Məqalənin ingiliscə mətni ilə ***http://journal.sapub.org/tourism*** internet saytında tanış olmaq mümkündür.

**Nuray ƏSGƏROVA**

8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri və Culfa Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Culfa rayonunun Yaycı kəndində yaşayan tənha ahıl qadın Şəfiqə İsmayılovaya baş çəkilib.

## Tənha ahıl qadına baş çəkilib

Adıçəkilən təşkilatların əməkdaşları tənha ahıl qadını 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edərək onun yaşayış vəziyyəti ilə maraqlanıb, tibbi müayinədən keçirib, ona məişət əşyası və ərzaq payı veriblər.

Vətəndaş Şəfiqə İsmayılova ona göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Qoruyaq, artıraq narbənd gözəlliyini, yaşadaq narbənd ağacının sərinliyini



Özünün fauna və florası ilə zəngin olan Şərur rayonunda nadir bitkilər, ağaclar çoxdur. Nadir ağaclar silsiləsinə aid edilən narbənd daha uzunömürlülər siyahısına daxildir. 300-350 il, hətta bundan da artıq yaşaya bilən narbənd ağacı yayın qızmar istisinə, quraqlığa, borana, güclü küləyə, çovğuna, 40-45 dərəcə şaxtaya dözümlüdür. Çətirinin böyüklüyünə, budaqlarının sıxlığına, gözəl görkəminə görə narbəndi əvəz edən ikinci ağac çətin tapılsın.

Narbənd ağacı barədə akademik Həsən Əliyev hələ 1982-ci ildə çap etdirdiyi "Həyəcan təbili" adlı kitabında yazmışdır: "Bəzək ağaclarından narbənd, demək olar ki, tamamilə məhv olmuşdur. Bu bəzək ağacına SSRİ ərazisində yalnız Naxçıvan Muxtar Respublikasında rast gəlirdik. 40-50 il bundan əvvəl Naxçıvanda hər bağın ortasında kölgəlik üçün yalnız bu ağaclar görünürdü. Onun sıx yarpaqları nəinki Günəşin şüalarını buraxmır, hətta çox vaxt yağışı da keçirmir. Belə bir gözəl bəzək ağacı görkəmli rəssam Bəhruz Kəngərlinin əsərlərində də təsvir edilmişdir. Təəssüf ki, indi bu ağacdan yalnız Naxçıvan kəndlərinin ərazisində tək-tək qalmışdır, nəsli kəsilmək üzrədir. Belə bəzək ağacının artırılması vacib məsələlərdən biridir".

Mərhum şair Əliağa Kürçaylı isə "Narbənd ağacı" adlı şeirində həyəcanını belə ifadə edirdi:

*Bəs nədən adını qoyublar "narbənd?"*  
*Deyirlər, kəsilir nəsli ilbəil.*  
*Nə calaq götürür, nə də ki peyvənd,*  
*O nə toxum verir, nə də ki şitil...*

"Narbənd ağacı" şeirinin təsiri ilə həmyerlimiz şair Vaqif Məmmədov Əliağa Kürçaylıya ünvanladığı "Şair, gözlərin aydın..." şeirində onu, necə deyərlər, muştuluqlayırdı:

*İstədim, deyəm ki, gözlərin aydın,*  
*Şərurda narbəndin nəsli kəsilmir.*  
*Bəlkə də, bu sirri ellərə yaydın,*  
*Bəlkə, bu hikməti çoxları bilmir?*

*Bir qoca yaşayır Şərur elində,*  
*Qəlbi saz, ağsaqqal kişidir, bilin.*  
*Qayçısı, bıçağı hər vaxt əlində,*  
*Narbənd peyvəndləmək işidir, bilin...*

Bu, o vaxtlar idi ki, Şərur rayonunun Mahmudkənd sakini Hüseyn Əliyevin (ona el arasında "Narbənd Hüseyn" deyirdilər) calaq üsulu ilə yetişdirdiyi narbənd şitillərindən ərsəyə gəlmiş ağaclar nəinki muxtar respublikamızın ərazisində, hətta Azərbaycanın digər rayonlarında, iri şəhərlərində belə, öz görkəmi, yaraşığı ilə göz oxşayırdı. Bu işdə təbiət aşiqi Hüseyn kişiyə onun oğlu İskəndər və nəvəsi Fərhad da kömək edirdilər. Hüseyn kişi qapısına peyvənd elədiyi narbənd tinglərin üçün gələnləri boş qaytarmaz, həm də heç kimdən heç nə ummazdı. Bir istəyi var idi ki, kökü kəsilməkdə olan narbənd yenidən artsın, çoxalsın, respublikamızın hər tərəfinə yayılsın.

Həyatını bu nəcib işə həsr edən Hüseyn kişi narbəndin nəslini qaraağaca peyvənd etməklə artırırdı. Şərur rayonunun mərkəzində, Cəlilkənddə, Mahmudkənddə, Kəngərli rayonunun Qıvraq qəsəbəsində, Xok kəndində, eləcə də muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində, hətta Bakıda, Gəncədə, Sumqayıtda 40-45 il bundan əvvəl Hüseyn kişinin əkdiyi narbənd ağaclarına indi də rast gəlmək olar.

Akademik Həsən Əliyevin yazdığı kimi, bir sıra yaşayış məntəqələrində bu ağacı hətta həyətlərdə də əkir, yayın qızmar günlərində sərin kölgəsində dincəlirdilər.

Hüseyn kişi tingi təkcə torpağa basdırmaqla kifayətlənmirdi, hər birinə öz övladı kimi baxırdı. Onlara tez-tez baş çəkir, becərilməsi ilə məşğul olurdu. Gödəksaplı beli, bıçağı və bağ qayçısı həmişə yanında olardı. Tinglərin, yaxud böyümüş ağacların diblərini yumşaldar, suvarar, artıq zoğlarını kəsər, ağaca xüsusi görkəm verərdi. Bir ağac, yaxud ting müəyyən səbəblərdən quruyanda isə gözləri yaşarır, ürəyi ağrıyırdı.

Heç yadımdan çıxmır, Hüseyn kişi Şərur şəhərinin Nizami küçəsindəki 7 nömrəli binanın qarşısına öz əlləri ilə iki narbənd tingi basdırmışdı və tez-tez onlara baş çəkirdi. Ağaclar artıq böyümüşdü və binaya boy verirdi. Səksəninci illərin ortaları idi, narbənd ağaclarına bir xəstəlik düşmüşdü; qurdlar ağacı içəridən yeyib çürüdür, nəticədə, ağacın gövdəsi quruyurdu. Heç bir dava-dərman kömək eləmirdi. Bir-iki ilin içərisində bu xəstəlikdən onlarla qollu-budaqlı narbənd ağacı məhv olmuşdu. Həmin ağaclardan da biri qurd xəstəliyinin güdazına getmişdi. Hüseyn kişi qurumuş ağacın yanında dayanıb elə ağlayırdı ki... Gördüyüm mənzərədən təsirlənib "Ağlama, Hüseyn əmi..." adlı bir yazı hazırlayıb qəzetdə dərc etdirdim.

Bu gün də rayonumuzda, eləcə də respublikanın yolum düşən bəzi bölgələrində quruyan narbəndlərə baxanda həmin hadisə yadıma düşür. Fikirləşirəm ki, kaş Hüseyn kişi sağ olaydı, quruyan ağacların yerində bərpa işləri aparmaq üçün calaq edilmiş şitillər yetişdirəydi. Təəssüf ki, nə Hüseyn kişi var, nə də onun bu nəcib işini davam etdirənlər.

Unutmamalıyıq ki, yaşıllıq gözəllik, yaraşıq olmaqla bərabər, həm də sağlamlıqdır. Gərək bu həqiqəti həmişə yadda saxlayaq; qoruyaq narbənd gözəlliklərini, yaşadaq narbənd ağacının sərinliyini. Bu iş hər kəsin vətəndaşlıq borcuna çevrilməlidir. Düzdür, Şərur rayonunda son illər çoxlu çinar ağacı əkilmiş və bu ağaclar artıq böyümüş, qol-budaq atmışdır. Bu uzunömürlü, dəyərli ağacla yanaşı, kökü kəsilməkdə olan narbənd haqqında da fikirləşməyə dəyər.

Deyirlər, rəhmətlik Hüseyn kişinin calaq alətləri oğlu İskəndər də dünyasını dəyişdikdən sonra bu ocaqda qiymətli yadigarlar kimi bu gün də qorunub saxlanılır. Geciksək, çox şey itirərik; rəhmətlik Hüseyn kişinin narbənd calaq etmək üçün işlətdiyi bıçaq və bağ qayçısı onlardan istifadə etməyi bacaranların yolunu gözləyir.

**Elman MƏMMƏDOV**

*İdman xəbərləri*

## Cüdoçular arasında muxtar respublika birinciliyi

Dünən 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yeniyetmələr arasında cüdo üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi turnirin açılış mərasimində çıxış edən Gənclər və İdman naziri Azad Cabbarov son illər muxtar respublikada bu sahənin geniş yayıldığını, gənclər arasında kütləvi hal aldığını iştirakçıların diqqətinə çatdırıb. Sonra federasiyanın sədr müavini Yaşar Səfərov çıxış edərək Bədən Tərbiyəsi və İdman Günü münasibətilə idmançıları təbrik edib və onlara uğurlar arzulayıb.

İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarışda 10 çəki dərəcəsində 80-dən çox idmançı tatami üzərində qüvvəsini sınayıb. Yekun nəticəyə əsasən, Asif Məmmədov (35 kq), Hüseyn Rzayev (38 kq), Vüqar Allahverdiyev (42 kq), Sadiq Sadiqli (46 kq), Elnar İmanov (50 kq), Samir Əsgərov (55 kq), Eynulla Vəliyev (60 kq), Uğur Nəcəfov (66 kq), Ruslan Babayev (73 kq) və Sultan Elmanlı (+73 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar.

## Muxtar respublika birinciliyinə yekun vurulub



5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yeniyetmələr arasında keçirilən yüngül atletika üzrə ümumtəhsil məktəblərinin komandaları arasında Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi birincilikdə 160 atlet çıxış edib.

Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən yarışın yekun nəticəsinə əsasən, "Naxçıvan" komandası bütün rəqiblərini geridə qoyaraq qalib adını qazanıb. "Sədərək" komandası ikinci, "Culfa" məktəbliləri isə üçüncü olublar.

## Ordubad voleybolçuları Babək komandasını məğlub edib

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkilatçılığı ilə 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş Babək və Ordubad rayon komandaları arasında voleybol üzrə yoldaşlıq görüşü keçirilib. Görüşdən öncə çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov və Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev son illər muxtar respublikada idmanın inkişafından danışdılar. İdmançıları 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə təbrik edən təşkilatçılar onlara uğurlar arzuladılar.

Görüşə gəlincə, daha üstün oyun sərgiləyən Ordubad voleybolçuları babəkli həmkarlarını 3:1 hesabı ilə məğlub etməyi bacarıblar.

Sonda təşkilatçılar tərəfindən voleybolçulara diplomlar təqdim olunub.

## Daha bir idmançımız beynəlxalq turnirin qalibi oldu

Naxçıvan idmançılarının beynəlxalq arenalarda qazandığı uğurlar gündən-günə artmaqdadır. Ötən həftə İran İslam Respublikasının Urmiya şəhərində kikboks üzrə peşəkarlar arasında beynəlxalq turnir başa çatıb. Adıçəkilən turnirdə 70 kiloqram çəki dərəcəsində mübarizə aparan Cavidan Rəcəbli bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının idmançısı diplom, medal və kubokla təltif olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Şahmat yarışı

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə "Naxçıvan" Universitetində tələbə qızlar arasında şahmat yarışı keçirilib. Yarışdan əvvəl universitetin bədən tərbiyəsi və idman rəhbəri Elşad Əliyev çıxış edərək muxtar respublikada qadınlara göstərilən qayğıdan danışıb, iştirakçılara uğurlar arzulayıb.

Sonra yarışa start verilib.

Yarışın nəticələrinə əsasən, Pedaqoji fakültənin I kurs tələbəsi Xəriban Əsədova birinci, İqtisadiyyat fakültəsinin I kurs tələbəsi Səbinə Kürdova ikinci, Pedaqoji fakültənin II kurs tələbəsi Şövkət Musayeva isə üçüncü yerlərə layiq görülüblər.

Sonda qaliblərə hədiyyələr təqdim olunub.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***


### Şərur Rayon Mərkəzi Xəstəxanası
*2015-ci il üçün kotirovka elan edir*

*1. Dərman preparatlarının satın alınması.*  
*2. Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 9 mart 2015-ci il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 10 mart 2015-ci il tarixdə saat 11[00]-də Şərur Rayon Mərkəzi Xəstəxanasında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Məzahir Əhmədov***  
***Telefon: 542-25-16***  
***Ünvan: Şərur şəhəri***



**_İtmişdir_**

Abbasov Tahir Məhəmmədəli oğlunun adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 27 iyun 2006-cı il tarixdə verilmiş 628 qeydiyyat nömrəli çıxarış itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*  
*Şöbələr: 545-81-44, 545-51-18*  
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*  
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 203